**Bakı Xəbər.** – 2022 – 26 avqust. - № 152. – C. 10.

# Azərbaycan tolerantlıq modelinin dünya üçün örnək elementləri...

**Qəribli Məhəmmədəli**

Bu gün dini və milli tolerantlıq və millətlərarası münasibətlərin inkişaf etdirilməsi fonunda tolerantlığın Azərbaycan modeli özünü dünyada mükəmməl nümunə kimi göstərməkdədir.

Azərbaycanda tolerantlıq ənənəsinin əsası hələ qədim dövrlərdən qoyulub. Azərbaycan tarixin ilkin dönəmlərindən başlayaraq hər zaman başqa xalqlara və dinlərə saygı ilə yanaşıb.

Bu münasibət müasir zamanda da nəinki dəyişilməyib, əksinə, daha da dərinləşib. Beləliklə, tarixdən süzülüb gələrək milli və dini tolerantlığın Azərbaycan modeli formalaşıb. Azərbaycanın dövlət müstəqilliyindən sonra xalqımızın əsrlər boyu yaşatdığı bu dəyər dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Məhz Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ictimai-siyasi sabitliyin bərpa olunması bütün xalqların və dinlərin nümayəndələrinin əvvəlki tək mehriban şəkildə birgə yaşayışını təmin etdi. Ölkə ərazisində milli və dini zəmində separatçılıq toxumu səpən bütün zərərli cərəyanların, qruplaşmaların fəaliyyətinin qarşısı qətiyyətlə alındı. 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası ölkəmizdə yaşayan bütün azsaylı xalqların və dinlərin nümayəndələrinin hüquqlarını, vicdan azadlığını təsbit etdi.

Azərbaycanın bir dövlət kimi keçdiyi sürətli inkişaf yolu hər birimizdə qürur və fəxarət hissi doğurur. Bu dövrdə ölkəmizin özünəməxsus sürətli yüksəlişindən yaranan inkişafın Azərbaycan modeli bir sıra dövlətlərin marağına səbəb olub. Doğma vətənimizi dünyaya tanıdan həm də tolerantlığın Azərbaycan nümunəsi olub. Çünki bu dövrdə Azərbaycanda həyata keçirilən dövlət siyasəti ölkədəki mövcud tolerantlıq mühitini daha da dərinləşdirib, xalqların və dinlərin nümayəndələri arasındakı tarixi dostluq tellərini daha da möhkəmləndirib. Təsadüfi deyil ki, Azərbaycanda tolerantlığın tam təmin olunması faktı dəfələrlə müxtəlif beynəlxalq təşkilatların hesabatında öz əksini tapıb.

Bu, xalqın özünün genofondundan gələn rəhmət, şəfqət, xeyirxah əməllərə bağlılıqdan doğur

Azərbaycandakı tolerantlığın ən gözəl nümunələrindən biri də tez-tez bütün dini icmaların nümayəndələrinin burada bir araya gəlməsidir. Məsələn, müsəlmanların Ramazan ayında təşkil olunan iftar məclislərində Azərbaycanda yaşayan xristianların, iudaistlərin və digər dini icmaların nümayəndələri də iştirak edirlər. Üç əsas səmavi dinin nümayəndəsinin mehriban şəkildə bir araya gəlməsi olduqca nadir hadisədir və sevindirici haldır ki, bu, məhz Azərbaycanda baş verir.

Qarabağ Seyid Ocaqlarının rəhbəri, şərqşünas Seyid Camal Əzimbəyli hesab edir ki, Azərbaycanda istər dinlərarası, istərsə də millətlərarası tolerant münasibətlər, multikultural dəyərlərə xalqın və dövlətin verdiyi qiymət, birlik və bərabərlik içərisində birgə yaşayış dünyanın heç bir ölkəsində olmayacaq dərəcədə yüksək səviyyədədir: "Bu inkişaf getdikcə daha da yüksəlməkdədir. Azərbaycan xalqının genefondundan gələn bütünlüklə birlik, bərabərlik, digər xalqlara münasibətdə xoşgörü bizdə olduğu qədər dünyanın heç bir ölkəsində yoxdur. Bu, xalqın özünün genefondundan gələn rəhmət, şəfqət, xeyirxah əməllərə bağlılıqdan doğan ülvi hislərdirsə, digər tərəfdən də dünyada heç bir ölkənin Azərbaycana çata bilməyəcəyi qədər Azərbaycan dövlətinin tolerantlığa, birlik və bərabərliyə xüsusi önəm verməsinin bariz nümunəsidir.

Erməni kilsəsi Azərbaycan dövləti tərəfindən təmir edilib, qorunub saxlanılır

Əgər tolerantlıqla bağlı, dinlərarası, istərsə də millətlərarası münasibətlərin möhkəmlənməsi, dostluq səviyyəsinə cilalanması baxımından Azərbaycan Respublikasında son illərin monitorinqini aparsaq, görərik ki, Azərbaycan nə qədər milli, mədəni, tolerantlıqla, multikultural dəyərlərlə bağlı beynəlxalq tədbirlərə ev sahibliyi edib. Azərbaycan həm də o ölkələrdəndir ki, 30 ilə yaxın torpaqlarını işğal edən qəsbkar ermənilərlə müharibə şəraitində olduğumuz bir vəziyyətdə, torpaqlarımızı girov saxladıqları bir durumda Bakıda, şəhərin ən önəmli, ən vacib və strateji yerində erməni kilsəsi Azərbaycan dövləti tərəfindən təmir edilib, qorunub saxlanılır. Bütün bunları nəzərə aldıqda, Azərbaycanda nəinki məzhəblərarası, digər dinlərarası münasibətlərin dövlət və xalq tərəfindən mühafizə olunması, şəxsən ölkə başçısının özü tərəfindən himayə olunması Azərbaycan modeli kimi bütün dünyaya nümunədir. Azərbaycanda fəaliyyət göstərən Avropa ölkələrinin səfirləri ilə dialoqda olarkən, İslam ölkələrinin diplomatları ilə görüşərkən belə bu tolerantlığa, birlik və bərabərliyə heyranlığı heç bir vaxt gizlətmirlər. Halbuki, Qərbin, Avropanın səsinin batdığı, susduqları bir vaxtda, 30 ildən sonra torpaqlarımızı azad etdikdə biz tarixi abidələrimizin, hətta İslama aidiyyəti olmayan, digər dinlərə məxsus abidələrin erməni vəhşilikləri ilə üzləşdiyini gördük. Ancaq Azərbaycan dövləti birmənalı olaraq bu dəyərlərə bağlılığını israrla qorumaqdadır. Düşünürəm ki, Azərbaycan xalqının özünün genefondundan gələn mərhəmət hisləri, xeyriyyəçilik ənənələrinə bağlılıq o qədər möhkəmdir ki, buradan da bir qaynaq olaraq xalqımızın istənilən təmsilçisi digər dinlərə də qayğı və ehtiram bəsləyir. Azərbaycan dövlətinin isə bu dəyərləri mühafizə etməsi, qoruması, dövlətimizin mənbəyi olan xalqımızın din-dövlət münasibətlərinin möhkəmləndirilməsində müstəsna rola çevrilir".

Azərbaycan olduqca mürəkkəb, böyük güclərin daim maraq dairəsində olan, bu üzdən məkrli planlardan sığortalanmayan coğrafi məkanda yerləşir. Bölgəmizdə təkcə siyasi baxımdan yox, dini və milli məsələlərdə də həssaslıq var. Tarixən Azərbaycanda müxtəlif dinlərin və millətlərin nümayəndələri firavan yaşayıb və yaşayır. Onlar burada özlərini sərbəst və rahat hiss edirlər, etnik qrupların vasitəsilə hər hansı təxribatlara cəhd edənlər isə zaman-zaman pərt olublar. Bütün bunlara əsaslanaraq tam məsuliyyətlə deyə bilərik ki, Azərbaycan dini və milli tolerantlıq baxımından bölgə dövlətləri arasında liderlik edir.